# UNEC brendi ictimaiyyət nümayəndələrinə təqdim edilib

Martın 15-də Azərbaycan Dövlət İqtisad Universitetində UNEC brendi ictimaiyyət nümayəndələrinə təqdim edilib.

Bu münasibətlə keçirilən mərasimdə universitetin rektoru, professor Ədalət Muradov “Azərbaycan Dövlət İqtisad Universitetinin brendi-UNEC” mövzusunda təqdimatla çıxış edib. Ölkə başçısı İlham Əliyevin 18 yanvar 2016-cı ildə “Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” imzaladığı sərəncamda “Made in Azerbaijan” brendinin dünya bazarında tanınması ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsinə dair tapşırıq verdiyini söyləyən rektor rəhbərlik etdiyi ali təhsil müəssisəsində bununla bağlı bir sıra işlərin reallaşdırıldığını bildirib. Qeyd olunub ki, sərəncamın icrasına ali təhsil müəssisələri səviyyəsində dəstək vermək məqsədilə Azərbaycan təhsil məkanında ilk dəfə olaraq universitetin brendləşdirilməsi həyata keçirilib ki, bununla da Azərbaycan Dövlət İqtisad





Universiteti brendini - UNEC-i dünya təhsil xidmətləri bazarında tanıtmaq iddiasındadır.

Dünya iqtisadiyyatının ən dinamik inkişaf edən sahələrindən birinin də təhsil sektoru olduğunu bildirən rektor, bir sıra ali təhsil müəssisələrinin əldə etdiyi gəlirlərin böyük dövlətlərin təhsilə ayırdığı xərclərin həcmindən çox olduğunu diqqətə çatdırıb. Bildirilib ki, dünyanın tanınmış universitetləri həmin ölkələrin iqtisadiyyatının innovativ katalizatoruna çevrilir. Təhsil sektoru həm də xidmətlər bazarının çox vacib tərkib hissəsidir. Bu sektorun ən fəal iştirakçıları universitetlərdir. Rektor Ədalət Muradov daha sonra: “Biz regional və dünya təhsil xidmətləri bazarına girərkən ciddi rəqabətlə üzləşmişik. Bu rəqabətdə tanınmaq və seçilmək üçün iştirakçılar mütləq brendləşməlidir. İnsan kapitalı yetişdirmək iddiasında olan universitetin öz nişanı olmalıdır,”- deyib. Qeyd edilib ki, UNEC brendinin yaradılmasında əsas məqsəd Azərbaycan və dünya universitetləri arasında keyfiyyətli, müasir təhsil standartlarına cavab verən, rəqabətədavamlı təhsil müəssisəsi kimi tanınmaq, dünya təhsil sisteminə inteqrasiya etməkdir.

Azərbaycan Dövlət İqtisad Universiteti de-fakto brendləşib. “Narxoz” və başqa adlar cəmiyyətdə universitetin mənfi obrazıdır. De-yure olaraq isə Azərbaycan Dövlət İqtisad Universiteti hazırda qanunvericiliyə uyğun olaraq brendləşib. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən yanvarın 21-də rəsmi qeydiyyata alınıb. Brend təsdiqlənərkən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi xüsusi təsnifatın 41-ci sinfini- tərbiyə etmə, tədris prosesinin təmin edilməsi, əyləncələr, idman və mədəni-maarif tədbirlərinin təşkili, ikinci isə 42-ci sinif - elmi və texnoloji xidmətlər və onlara aid elmi tədqiqatlar və işləmələr, sənaye analizi və elmi tədqiqatlar üzrə xidmətlər, kompüterlərin texniki və proqram təminatının işlənməsi və təkmilləşdirilməsini əsas götürüb. Universitetin brendi UNEC-dir (University of Economy).

Rektor çıxışında bütün dillərdə UNEC kimi təmsil olunmaq istədiklərini söyləyib. O, brend yaradılmaqla universitetin adının dəyişilmədiyini, ümumiyyətlə bu məsələnin onların səlahiyyətində, eyni zamanda məqsədin heç də bu olmadığını açıqlayıb. Brend həm də abreviatura deyil. Azərbaycan dilində ADİU, rus dilində АГЭУ, ingilis dilində ASUE abreviaturalardır.

UNEC brendinin xüsusilə universitetin müsbət imicinin formalaşmasında əhəmiyyətli təsir göstərəcəyini deyən Ədalət Muradov çıxışının sonunda rəhbərlik etdiyi ali təhsil müəssisəsinin qarşıya qoyduğu əsas hədəflərə də toxunub.

Tədbirdə Azərbaycan Təhsil Şurasının sədri, professor Əjdər Ağayev, təhsil ekspertləri Nadir İsrafilov, Etibar Əliyev, “Azərbaycan müəllimi” qəzetinin baş redaktoru Bayram Hüseynzadə, Təhsil Nazirliyi İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov çıxış edərək universitetin brendləşdirilməsini yüksək qiymətləndiriblər, bunun Azərbaycanda təhsilin keyfiyyətinin daha da artmasında xüsusi əhəmiyyət kəsb edəcəyini vurğulayıblar. Çıxış edənlər Azərbaycan Dövlət İqtisad Universitetinin UNEC brendi ilə beynəlxalq təhsil aləmində uğurla tanınacağına ümidvar olduqlarını qeyd ediblər.

Sonda rektor KİV nümayəndələrinin suallarını cavablandırıb.

**Samirə KƏRİMOVA,**
*“Azərbaycan müəllimi”*
**Fotolar: Rəşad ZİYADOV**